# Yarandığı gündən xalqın inam və etimadını qazanan partiya

**Dövlət başçımızın regionun ən güclü ölkəsində fəaliyyət göstərən və bölgənin ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının 30 illik tədbirindəki tarixi çıxışını oxuyarkən gözüm önünə 1992-ci ilin payızında tanış olduğum bir sənədin surəti gəldi. Həmin sənəd partiyamızın təsis konfransında qəbul edilmiş proqram idi.**

Bəs nə üçün məhz o gün YAP-ın köhnə proqramını (proqrama 2021-ci ildə yeni çağırışlarla bağlı, xüsusən İkinci Qarabağ müharibəsindəki Qələbədən sonra yaranmış reallıqların nəzərə alınması məqsədilə dəyişikliklər edilmişdir) xatırladım? Çünki dövlət başçımızın tarixi çıxışında həmin proqramın adı çəkilməsə də, onun bütün müddəalarının ardıcıllıqla həyata keçirildiyi barədə söz açılırdı.

YAP-ın ilk proqramında irəli sürülmüş əsas vəzifələrdən bir neçəsini xatırladaq: **Dövlət müstəqilliyinin möhkəmləndirilməsi.**

Prezident öz çıxışında dedi: "1991–1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır".

Ölkənin "ölüm ayağında olan" iqtisadiyyatını dirçəltmək üçün dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan saziş imzaladıq. Dövlət başçımızın da dediyi kimi, neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratmışdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, Azərbaycan müstəqil iqtisadi siyasət aparsın və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

Proqramdakı ikinci müddəaya diqqət yönəldək: **Demokratik, hüquqi, dünyəvi dövlətin qurulması.**

Dövlət başçısının adıçəkilən çıxışında oxuyuruq: "Məhz Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizin strateji xəttini müəyyən edən əsas addımlar atılmışdır. İlk növbədə, Konstitusiya qəbul edilmişdir. Təsəvvür edin ki, Heydər Əliyev hakimiyyətə gələnə qədər Azərbaycan artıq müstəqil dövlət idi, amma bizim Konstitusiyamız yox idi. Konstitusiyanın qəbul edilməsi çox önəmli tarixi hadisədir. Dövlətçiliyin əsasları qoyulmuşdur, dövlət təsisatları düzgün zəmində formalaşmışdır"

Yəni, biz müstəqilliyin ilk illərində beynəlxalq aləmdə Azərbaycana qarşı olan əsassız mövqeyə düzəlişlər edə bildik. Beynəlxalq təcridi, o cümlədən ölkəmizə qarşı olan informasiya blokadasını yara, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinin diqqətinə çatdıra bildik.

Həmin dövrdəki ən böyük uğurlarımızdan biri isə güclü, müasir maddi-texniki bazaya malik Azərbaycan Ordusunun yaradılması idi ki, bunun nəticəsini təkcə ölkəmiz və xalqımız deyil, regionda və dünyada hamı yaxşı gördü.

Proqramdakı başqa bir məqama diqqət yönəldək: **Vətəndaş həmrəyliyinin təmin olunması.**

Bu barədə söz açmazdan əvvəl xüsusilə vurğulayaq ki, ölkədə fəaliyyət göstərən 55 partiyadan 53-ü İkinci Qarabağ müharibəsinin başlandığı gündən etibarən dövlətimizin və ordumuzun yanında olduqları barədə mükəmməl bir sənədə imza atmışdılar. Bu fakt da bizim milli həmrəyliyə nail olduğumuzun göstəricisi idi, YAP-ın 30 illiyinə həsr edilən tədbirdə, demək olar ki, AXCP istisna olmaqla, bütün siyasi partiyaların təmsilçilərinin iştirak etməsi də.

Bütün bunlar o deməkdir ki, həm ulu öndərin, həm də Prezident İlham Əliyevin həyata keçirdikləri tədbirlər nəticəsində Azərbaycanda yeni bir siyasi konfiqurasiya yaradılmışdır. Ekspertlərin fikrincə, bu, aparılan hərtərəfli islahatların nəticəsidir.

Dövlət başçımız həmin tədbirdə dedi: "Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan dönməyəcəyəm. Son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu. Ulu öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək, belə də oldu. Biz onun siyasi xəttini davam və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında, hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir".

Bəli, hər bir azərbaycanlı. Şuşada, Ağdamda, Kəlbəcərdə, Laçında, ümumiyyətlə, işğaldan azad edilmiş bütün ərazilərdə dövlət bayrağımız dalğalanmağa başlayandan sonra artıq Azərbaycan iqtidarına qarşı durmaq istəyən kimsə yoxdur. Yəni, biz həqiqi milli həmrəyliyə nail olmuşuq.

Edəcəyik, demişik və etmişik.

Bu qəbildən olan misalları – yəni, partiyamızın proqramında nəzərdə tutulmuş və həyata keçirilmiş məqsədlərimiz barədə faktları çox sadalaya bilərik. Ancaq dövlət başçımız xatırladır ki, hələ görüləsi işlər çoxdur: "İqtisadiyyatımızın şəffaflaşdırılması, xoşagəlməz hallara qarşı mübarizə, kölgə iqtisadiyyatının həcminin əhəmiyyətli dərəcədə azaldılması, biznes mühitinin yaxşılaşdırılması, inhisarçılığa qarşı daha ciddi mübarizə – bütün bunlar gündəlikdə duran məsələlərdir".

Cənab Prezident xatırlatdı ki, Qarabağı və Şərqi Zəngəzuru öz hesabımıza yenidən qurmaq və bütün məqsədlərə çatmaq üçün bizə mütləq güclü iqtisadiyyat bundan sonra da lazım olacaq. Çünki bu, əsasdır: "O ölkələr ki, iqtisadi cəhətdən digər ölkələrdən, yaxud da ki, beynəlxalq maliyyə qurumlarından asılıdır, o ölkələr faktiki olaraq müstəqil siyasət aparmaqda çətinlik çəkirlər. Biz isə hər zaman istəyirdik ki, siyasətimiz ancaq xalqımızın iradəsini əks etdirsin. Biz istəyirdik ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməsin və belə bir imkan olmasın. Ona görə iqtisadi güc, iqtisadi müstəqillik bütün başqa sahələrdəki fəaliyyətin təməlidir".

Bəli, bugünkü Azərbaycan dövləti ulu öndərin yolu ilə gedərək, dünyada baş verən dəyişikliklərə çox diqqətlə yanaşır. Ən mütərəqqi təcrübələr Azərbaycanda tətbiq edilir.

Əcnəbi ekspertlər ulu öndərin dünyasını dəyişdiyi günlərdə yazmışdılar: "Onun üç böyük əsəri var – Müstəqil Azərbaycan dövləti, Yeni Azərbaycan Partiyası və öz siyasi irsini məmnunluqla etibar etdiyi siyasi varisi olan İlham Əliyev".

Biz fəxr edirik ki, bu gün ümummilli liderimizin hər üç əsəri Azərbaycana baş ucalığı, xalqımıza isə üz ağlığı gətirir. Prezident İlham Əliyevin dediyi kimi, müstəqil, qüdrətli Azərbaycan dövlətinin ən böyük uğurları hələ qabaqdadır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***